# Şagirdlərdə tolerantlıq hissinin formalaşdırılması müasir dövrün tələbidir

**Təranə Əsgər qızı Tağıyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
**E-mail:** teranetaqi55@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. M.Ə. Zamanova,
p.ü.f.d., dos. A.Ş. Həşimova

**Açar sözlər:** tolerantlıq, multikulturalizm, dözümlülük, intizamlılıq, şagird, mədəniyyət, tarix
**Ключевые слова:** толерантность, мультикультурализм, терпеливость, дисциплинированность, ученик, культура, история
**Key words:** tolerance, multiculture, endurance, discipline, student, culture, history

***"Böyüməkdə olan nəslin mənəviyyatca zəngin, ideyaca mətin, yüksək əxlaqlı şəxsiyyət kimi formalaşdırılması bu gün cəmiyyətimizin qarşısında duran çox mühüm bir vəzifədir"***

***Ümummilli lider Heydər Əliyev***

Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə dinlər və sivilizasiyalararası anlaşmada aparıcı rol oynayıb. Azərbaycan eyni bir ölkədə yaşayan müxtəlif xalqların hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun siyasəti ilə bəşəriyyətə nümunə göstərir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev multikulturalizmi dövlət siyasəti elan edərək 2016-cı ili "Multikulturalizm ili" elan etmişdir. Azərbaycan tolerant ölkədir. Tolerantlıq və multikulturalizm dilindən və dinindən asılı olmayaraq, Azərbaycan xalqının həyat tərzinə çevrilmişdir. Müasir Azərbaycanın tolerantlıq modeli dünyanın diqqətini cəlb edir. Azərbaycanda əsrlər boyu mövcud olmuş milli dəyərlər, tolerantlıq bu gün də qorunub saxlanılır və gələcək nəsillərə ötürülür. Azərbaycan çox konfessiyalı bir ölkədir və burada tarixən müxtəlif dini və tarixi abidələr mövcuddur. Azərbaycan əhalisinin əksəriyyətini azərbaycanlılar (83%) təşkil edir. Bundan başqa respublikanın ərazisində bir çox digər millət və xalqların da nümayəndələri yaşayırlar. Bu gün Azərbaycanda xristian tarixi abidələri, alban kilsəsi, sinaqoq, pravoslav və katolik kilsələri qorunub saxlanılır. Azərbaycan dövləti onlara qayğı və diqqətlə yanaşır. Azərbaycanda hər bir bəşər övladının yaşamaq, azadlıq, şəxsi toxunulmazlıq hüquqları vardır. Azərbaycanın beynəlxalq arenaya təqdim etdiyi multikultural model xalqların və dini konfessiyaların dostluq və mehriban şəraitdə birgə yaşamalarını və fəaliyyət göstərmələrini təmin edən bir modeldir. Terrorizm, ekstremizm, rasizm, multikulturallığa qarşı təhlükəli meyllərin meydana gəldiyi, dözümsüzlük hallarının artdığı bir dövrdə Azərbaycan bir daha dünyaya dövrümüz üçün çox vacib olan bu mesajı ünvanladı: tolerantlıq və multikulturalizmin alternativi yoxdur, bəşəriyyətin nicat yolu birlik və həmrəylikdən keçir.

Bəs "multikulturalizm", "tolerantlıq" anlayışları nəyi bildirir və onların məktəb praktikasına daxil olmasının səbəbi nədir?

Multikulturalizm ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və dinlərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunmasıdır.

"Tolerantlıq" anlayışı dözümlülük, bağışlanmaq bacarığı, başqasının fikrinə hörmət etmək, digər insanların hərəkətlərinə qarşı dözümlü olmaq mənasını verir. Elmi ədəbiyyatda tolerantlıq bəşər mədəniyyətinin müxtəlifliyinin tanınması kimi nəzərdən keçirilir. Tolerantlıq digər insanları olduğu kimi qəbul etmək və qarşılıqlı razılıq əsasında onlarla birgə fəaliyyət göstərməkdir.

Tolerant şəxsiyyətin yetişdirilməsində təhsilin rolu böyükdür. Məktəbdə tolerantliq mədəniyyətinin formalaşdırılması önəmlidir. Gənc nəslin tolerantlıq mədəniyyəti əsasında tərbiyə olunmasında məqsəd, onların etnik, sosial və dini mənsubiyyətindən, münasibətlər, dünyagörüşü, düşüncəsindən asili olmayaraq əməkdaşlığa hazırlamaqdır. Bu da qruplar arası və qrupdaxili münaqişələrin qarşısını alacaq, daha mədəni və sivil cəmiyyətin formalaşmasına kömək edəcək. Təlim prosesində qarşılıqlı anlaşma, hörmət və əməkdaşlıq prinsipləri, həm də tolerantlıq formalaşır. Tolerantlığın formalaşdırılması zamanı hər yaş qrupunun spesifik və fərqli xüsusiyyətləri nəzərə alınmalıdır.

Kiçikyaşlı məktəblilərdə tolerantlıq tərbiyəsi çoxcəhətliliyi və xüsusi mürəkkəbliyi ilə fərqlənir. Çünki məhz bu yaşda mənəvi davranışın təməli qoyulur, əxlaq normaları və davranış qaydalarının mənimsənilməsi, ictimaiyönlü şəxsiyyətin formalaşması baş verir. Bu yaşda uşaqların emosionallıq, tələsik qərar qəbul etməyə meyllilik, təxirəsalınmaz tədbirlərdə, nəzərdə tutulmuş məqsəd uğrunda mübarizədə iradə çatışmazlığı fərqləndirir. Artıq bu yaşda uşağın tolerantlığa hansı səviyyədə yiyələnməsini görmək olar:

— Yüksək səviyyə: uşaq millətlər arasında fərqləri hər vaxt qəbul edir, digər xalqların tarixinə və mədəniyyətinə maraq göstərir, milli münasibətlərdəki çoxcəhətliliyi dərk edir.

— Orta səviyyə: uşaq millətlər arasındakı fərqləri bəzən qəbul edir, digər xalqların tarixinə və mədəniyyətinə hərdən maraq göstərir, milli çoxcəhətliliyi dərk etməkdə çətinlik çəkir.

— Aşağı səviyyə: uşaq millətlər arasında fərqi qəbul etmir, digər xalqların tarixinə və mədəniyyətinə maraq göstərmir, milli çoxcəhətliliyi başa düşmür.

Orta və ali təhsil müəssisələrində tolerantlıq tərbiyəsi müəllimlə öyrənən arasında dialoq və hər iki tərəfin əməkdaşlığı şəraitində keçilməlidir. Təlim kursları və proqramların məzmunu şagirdlərə öz xalqının mədəniyyətini mənimsəməyə, vətənin və dünyanın müxtəlif mədəniyyətləri haqqında təsəvvürləri formalaşdırmağa kömək edən komponentlərlə zənginləşdirilməlidir. Tolerantlıq tərbiyəsinin əsas məqsədi:

- Uşaqların tolerantlıq mədəniyyətinə yiyələnməsinə və tolerantlıq ideyalarının maksimum geniş yayılmasına yardımçı olmaq;
- Müxtəlif dinə və millətə malik şagirdlərlə qarşılıqlı anlaşma əsasında münasibət, əməkdaşlıq qurmağı bacaran, ləyaqət hissi olan və insanlara hörmət edən şəxsiyyətin formalaşmasına kömək etmək.

Uşağın şəxsiyyəti onun özündə, bütün hərəkətlərində, münasibətlərində, hisslərində insani xüsusiyyətləri dərk etməsi, ümumbəşəri dəyərlərə və mədəniyyətə yiyələnməsi yolu ilə formalaşır.

Yeniyetmələrin digərlərinə qarşı tolerant münasibətlərə nail olmağın yollarından biri onlarda dözümlülüyü tərbiyə etməkdən ibarətdir. Bu, şəxsiyyətin öz fikirlərini, arzu və tələblərini açıq və azad bəyan etmək, onları həyata keçirmək qabiliyyətlərində özünü göstərir. Yeniyetmələr başqa insanların ləyaqətini tapdalamayaraq öz mövqeyini müdafiə etmək, özünə və ətrafdakılara lazım gəldikdə "yox" deməyi bacarmaq, ədalətli və ədalətsiz tənqidi iradlara optimal reaksiya vermək qabiliyyəti əldə edirlər. Yeniyetmələrə çaşqınlıq hissi keçirməyərək,

digərlərindən nəyisə xahiş etmək bacarığını öyrətmək vacibdir. Bütün bunlar ətrafdakı insanlarla tərəfdaşlıq münasibətlərini qoruyub saxlamağa imkan verəcəkdir.

Müasir pedaqogikada qeyd olunur ki, obyektiv reallıq şagirdlərin millətlərarası münasibət mədəniyyətinin inkişafına çox diqqət yetirməyi tələb edir. Millətlərarası münasibət mədəniyyətində etnik tolerantlıq dominant sayılır. Təlim prosesində etnoslararası münasibətlər üçün konstruktiv mühit yaratmaqla onu inkişaf etdirmək lazımdır. Tolerantlığın formalaşdırılmasında uşaqlarda tənqidi münasibət və müstəqil düşünmə bacarıqlarının tərbiyəsi böyük əhəmiyyət kəsb edir. Uşaqlar dözümlü olmağı öyrənirlər. Onlar etiraf edirlər ki, insanlar mövqeyinə, maraqlarına, xarici görünüşlərinə görə fərqlənir, hər biri öz fərdiyyətini saxlayaraq həyatda yaşamaq hüququna malikdirlər. Bu halda tolerant və qeyri-tolerant (intolerant) insanların xüsusiyyətlərini qeyd etmək lazımdır. Psixoloji ədəbiyyatda bu cür təsnifat şərti sayılır. Belə ki, hər bir insan şəraitdən asılı olaraq tolerant və qeyri-tolerant işlər görə bilər. Psixologiyada bunların əsas xüsusiyyətləri və fərqləri göstərilir:

| **I Özünüdərketmə** | |
|---|---|
| *Tolerant insanlar:* | Qeyri-tolerant (intolerant) insanlar |
| özünə tənqidi yanaşır,özlərinin üstün və fərqli cəhətlərini aydınlaşdırmağa çalışırlar | özlərində yalnız yaxşı cəhətləri görür, digər insanları ittiham edirlər. |
| **II Müdafiə** | |
| özünə arxayındır, problemləri həll edə biləcəyinə əmindir | öz sosial əhatəsindən və özündən çəkinir, hər işdə təhlükə görür |
| **III Məsuliyyət** | |
| başqalarının üzərinə məsuliyyət qoymur, özü öz əməlinə görə cavab verir. | belə hesab edir ki, hadisələr ondan asılı olmayaraq baş verir və buna görə də məsuliyyət daşımır |
| **IV Müəyyənləşdirilməsinə ehtiyac var** | |
| yaradıcılığa və öz problemlərini həll etməyə can atırlar | özlərini arxa plana çəkirlər (mən yox) |
| **V Empatiya qabiliyyəti** | |
| özünü və digərlərini düzgün qiymətləndirə bilirlər | ətrafdakı insanları özünəməxsus baxışlarla qiymətləndirirlər |
| **VI Yumor hissi** | |
| öz hərəkətlərinə gülməyə qadirdir | yumor hissinə malik deyildir, gərgin və biganədirlər |
| **VII Avtoritarlıq** | |
| demokratik açıq cəmiyyətdə yaşamağa üstünlük verir | sərt hakimiyyətli avtoritar cəmiyyətdə yaşamağa üstünlük verir |

Beləliklə, bu nəticəyə gəlmək olar ki, tolerant insan özünü dərk edir, ətraf mühitdə rahatdır, digər insanları tanıyır, humanistdir, həmişə köməyə gəlməyə hazırdır, digər xalqların mədəniyyətinə, baxış və ənənələrinə xeyirxah münasibəti ilə seçilir, əməkdaşlıq etməyə meyllidir. İntolerant insan isə yalnız öz müstəsnalığı haqqında düşünür, tərbiyə səviyyəsi aşağı olub, digər xalqların mədəniyyəti, baxışı və ənənələrinə etinasız yanaşır, aqressivdir, tənhalığa meyllidir. Bu seçimi aparmaqda müəllim fasilitator olub, istiqamət verməli, uşağı lazım olan istiqamətdə müstəqil fəaliyyət göstərməyə mane olan problemi həll etməlidir. Müəllim:

- sülhsevərliyi tərbiyə etməli;

- hər bir şagirdin potensial imkanlarını üzə çıxarıb, onların hisslərinə və mövqeyinə hörmətlə yanaşmalıdır;
- uşaqlar üçün nümunə olmalıdır;
- dinləməyi bacarmalıdır;
- şagirdlərdə qarşılıqlı hörmət hissini inkişaf etdirməlidir;
- avtoritar hallara yol verməməlidir;
- birgə fəaliyyət və əməkdaşlığı dəstəkləməlidir

Müasir dövrdə şəxsiyyətdə ictimai keyfiyyətlərin, o cümlədən vətəndaşlıq mövqeyinin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Vətəndaşliq keyfiyyəti şəxsiyyətdən intizamlı olmağı, hüquq və asadlıqlarını qorumagı, vəzifələrini şüurlu olaraq yerinə yetirməyi tələb edir. İntizamlılıq insanın davranışında, hərəkətlərində özünü göstərir, ictimai davranış norma və qaydalarına şüurlu olaraq riayət etməsini əsaslandırır. İntizamlılıq şagirdlərdə mətinlik, möhkəmlik, dözümlülük, qətiyyətli, səbirli, iradəli olmaq kimi keyfiyyətləri formalaşdırır. İntizamlılıq ətrafdakı insanlarla ünsiyyətdə nəzakətli, diqqətli, qayğıkeş olması kimi əxlaqi keyfiyyətlərdə özünü təzahür etdirir. Təlimdə adı çəkilən keyfiyyətləri formalaşdırmaqla yanaşı şagirdlərdə gələcəyin daha yaxşı olmasına daxili inam yaradılmalıdır. Kollektivçilik, vətəndaşlıq, şüurlu intizam kimi əxlaqi keyfiyyətlər bir sıra konkret adətlərin mənimsədilməsi ilə tərbiyə edilir. Başqalarının qayğısına qalmaq, insanların dərdinə şərik olmaq, eqoist ehtiraslarını dayandırmaq, kollektivin tələblərini, cəmiyyət qarşısındakı öhdəliklərini yerinə yetirmək, söz və hərəkətlərinə cavabdeh olmaq belə adətlərdəndir. Yüksək tonda danışmaq, başqalarının sözünü kəsmək, qolları oynatmaq kimi adətlər xoşa gəlmir. Ona görə də müəllim şagirdlərə nümunə olmaqla, onlarda belə vərdişlərin aradan qaldırılmasına nail olmalıdır.

Beləliklə, məktəb böyüməkdə olan gənc nəslin tolerantlığının məqsədyönlü tərbiyəsi üçün hərtərəfli şərait yaradan bir ocağa çevrilməlidir. Tərbiyə prosesində şagird cəmiyyətdə öz mövqeyini və məsuliyyətini dərk etməli, milli-mənəvi dəyərlərə, ümumbəşəri və mültikultural dəyərlərə hörmət bəsləməyi, ölkəmizdə baş verən ictimai-siyasi, sosial hadisələrə münasibət bildirməyi bacarmalı, onda milli düşüncə və milli təfəkkür formalaşmalıdır. Şagirdlər Vətən təəssübünü, vətəndaşlıq və dövlətçilik mövqeyini üstün tutmalı, onların qəlbində Vətən, dövlət, xalq sevgisi, mənsub olduğu dövlətə sədaqət hissi daha da inkişaf etməlidir.

**Məqalənin aktuallığı.** Azərbaycan eyni bir ölkədə yaşayan müxtəlif xalqların hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun siyasəti ilə bəşəriyyətə nümunə göstərir. Multikulturalizm və tolerantlıq tarixən Azərbaycan xalqının həyat tərzi olmuşdur. Azərbaycanda əsrlər boyu mövcud olmuş milli dəyərlər, tolerantlıq bu gün də qorunub saxlanılır və gələcək nəsillərə ötürülür. Məqalədə tolerant və intolerant uşaqların xüsusiyyətləri sadalanır və buna uyğun olaraq gənc nəslin tolerantlığının məqsədyönlü tərbiyəsində təhsil ocaqlarının və müəllimlərin üzərinə düşən vəzifələr açıqlandığı üçün bu məqalə aktual hesab olunur.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə multikulturalizm və tolerantlığın inkişaf etdiyi Azərbaycanda şagirdlərin tolerantlıq hissinin formalaşmasında müəllimin qarşısında duran əsas vəzifələr sadalanır, gənc nəslin tolerantlıq mədəniyyəti əsasında tərbiyə olunmasının məqsədi açıqlanır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abdulla K. Azərbaycan multikulturalizmi. Bakı, 2017.
2. Haciyev A.N, Cəfərova E.H, Məmmədov İ.N. Multikulturalizmə giriş. Bakı, 2018.
3. Xəlilov S. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Baki, 2020.
4. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2010.

**Т.А. Тагиева**

## Формирование толерантности у учащихся - требование современности

## Резюме

Статья посвящена формированию толерантности у учащихся. Отмечается, что формирование толерантности осуществляется в процессе воспитания, целенаправленно организованного учителем в коллективе класса. Цель воспитания толерантности – воспитание в подрастающем поколении потребности и готовности к конструктивному взаимодействию с людьми, независимо от их национальных, социальных, религиозных принадлежностей, взглядов, мировоззрений, стилей мышления и поведения. Результатом толерантно - ориентированного воспитательного процесса являются ценности толерантности, усвоенные учащимися.

**T.A. Tagiyeva**

## The formation of students' tolerance is the demand of present day

## Summary

The article is devoted to the formation of students' tolerance. It is mentioned that the formation of students' tolerance is realized by teachers purposeful upbringing process in collective class condition. The goal in the formation of tolerance is upbringing cooperation without reference to national, social, religious affiliation, outlook, thoughts of young generation and men. In the upbringing process the values of tolerance are appropriated by students.

**Redaksiyaya daxil olub:** 05.11.2020